10.61764/lasr.2.2023.105-111

**UOT 33.314**

**Hüseyn Rəhimli**
*Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası, magistr*
Rahimli@mail.ru
**Elmi rəhbər: i.ü.f.d.dos., Hicran Mirzəyeva**
*akademiya_sm@mail.ru*

# KƏND ƏRAZİLƏRİNDƏ ƏMƏK RESURSLARININ FORMALAŞMASININ METODOLOJİ MƏSƏLƏLƏRİ

**Xülasə**

*Bazar iqtisadiyyatı şəraitində əmək qabiliyyətli əhali qruplarının müasir əmək bazarı tələbləri baxımından formalaşdırılması onların məşğulluq problemlərinin asan həllinə zəmin yaradır. Bu problemlər kənd iqtisadiyyatını da əhatə edir. Ona görədə məqalədə əmək resurslarının formalaşdırılmasında əsaslandırılmış metodoloji yanaşma üsullarından və etibarlı proqnoz məlumatlarından istifadə edilməsi variantları tədqiq olunur.*

***Məqsəd-***kənd ərazilərində məşğulluq probleminin həlli məqsədilə əmək resurslarının formalaşdırılması xüsusiyyətlərinin sistemli və kompleks şəkildə öyrənilməsi

***Metodologiya-***tədqiqatda müqayisəli təhlil və sintez metodundan istifadə edilmişdir.

***Tədqiqatın nəticələri-***kənd yerlərində əmək resurslarının formalaşmasının metodoloji problemlərinin həllində iqtisadi-riyazi modelləşdirmənin imkanlarından istifadə mühüm əhəmiyyət kəsb edir.

***Açar sözlər:*** kənd yerləri, məşğulluq, əmək resursları, əhali

## Giriş

Azərbaycanda iqtisadi sistemin dəyişməsi ölkədə əmək bazarının fəaliyyətinin təmin olunması zəruriyyətini yaratdı. Yəni dövlət müəssisələrinin özəlləşdirilməsi və kollektiv təsərrüfatların fəaliyyətinin dayandırılması nəticəsində ölkədə böyük miqyasda işçilər ordusunun yaranması ölkədə əmək bazarının yaradılmasını şərtləndirdi. Sərbəst bazar iqtisadiyyatı şəraitində əmək bazarının formalaşdırılması və fəaliyyətinin tənzimlənməsi xüsusi zəhmət və səriştə tələb edir.

İstər kənd təsərrüfatının və istərsə də sənayenin yeni əsaslar və prinsiplər əsasında fəaliyyətə başlamalarını nəzərə aldıqda, artıq dövlət sifarişləri əsasında deyil, bazar tələbinə uyğun məhsul istehsalını formalaşdıran müasir, effektiv texnoloji və texnikaların istehsalata tətbiqini həyata keçirə bilən işçi qüvvəsinə ehtiyac yarandığı üzə çıxır. Yəni ixtisas və peşə yönümlülüyünün müasirləşdirilməsi həyata keçirilmədən əmək bazarının dayanıqlığının təmin olunması mümkün olmur. Nəticədə işsizlər ordusu günü-gündən artır, əhalinin həyat səviyyəsi pisləşir. Bu sahədə mövcud durum kənd yerlərində daha kəskin surətdə özünü göstərir.

Qeyd edildiyi kimi bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq əvvəlki mülkiyyət münasibətlərinin dəyişdirilməsi əsasında kənd əhalisinə pay torpaqlarının verilməsi kənd ərazilərində mövsümi məşğulluq mühiti yaratsa da regionlarda sivil əmək bazarının formalaşdırılması ciddi çətinliklərlə qarşılaşmaqdadır. Ona görədə kənd yerlərində əmək resurslarının formalaşdırılması işsizliyin azaldılması və məşğulluğun artırılması elmi cəhətdən ciddi araşdırmalar tələb edir.

## Kənddə əmək resurslarının formalaşdırılması aspektləri

Kənd yerlərində əmək resurslarının aqrar sahənin və ümumilikdə iqtisadiyyatın inkişafı üzrə strateji hədəflərə uyğun təşəkkülü proseslərinin tənzimlənməsi vəziyyəti, onun meyarlarının əsaslandırma dərəcəsi və vasitələrin seçimi metodoloji baxımdan mühüm əhəmiyyət kəsb edir.

Kənd ərazilərində əmək resurslarının formalaşması və onlardan səmərəli istifadə proseslərinin tənzimlənməsinin metodoloji əsasları da mühüm məsələlərdəndir. Tədqiqat göstərir ki, işçi qüvvəsinin təkrar istehsalı və milli iqtisadiyyatın inkişafı prosesləri sıx qarşılıqlı vəhdətdə öyrənilməlidir. İşçi qüvvəsinin formalaşma proseslərinin tədqiqi ilə əlaqədar metodoloji yanaşma qrupları və onların mahiyyətinə fərqli münasibətlər mövcuddur. Məsələn, məşğulluğun statistikasına əsaslanan yanaşma qrupları aşağıdakıları əsas sayır:

- Ölkə üzrə əmək qabiliyyətli əhali sayının, məşğulluq səviyyəsinin konkret rəqəmlərlə və sahələr üzrə hesabatlarını;
- Əmək qabiliyyətli əhalinin formalaşması qanunauyğunluqlarının statistikasını;
- Əmək resurslarının formalaşması üzrə ilkin məlumatların operativ təhlili nəticələrini.

Əmək resurslarının tarixi inkişafı məsələlərinə əsaslanan metodoloji yanaşma qrupları qeyd olunanlara üstünlük verirlər:

- Ərazi üzrə yerli əhalinin adət və ənənələrinə uyğun əmək vərdişlərinin öyrənilməsinə;
- Ərazinin coğrafi mövqeyi, təbii resursların miqdarı baxımından əmək vərdişlərinin inkişaf mühitinin araşdırılmasına.

Əmək resurslarından istifadənin iqtisadi tədqiqinə istinad qruplarının daha çox diqqət yetirdiyi məqamlar isə aşağıdakılardır:

- Ölkə və xalqlar üzrə əmək resurslarının formalaşması dinamikasının öyrənilməsi;
- Məşğulluğun artırılması və işsizliyin minimumlaşdırılması proseslərinin iqtisadi qanunauyğunluqlarının tədqiqi.

Modelləşdirmə istiqamətini seçən qruplar isə ixtisasartırma kurslarının təşkilində etnik qrup xüsusiyyətlərinin öyrənilməsinə, eyni zamanda əmək vərdişlərinin təkmilləşdirilməsinə və innovativ inkişaf amillərinə üstünlük verirlər.

Qeyd olunan fərqliliklərə baxmayaraq, bu yanaşmaların hamısında mahiyyətcə oxşar vəzifələrin öhdəsindən gəlinməsi məsələləri dayanır. Əsasən bunlarla bağlı problemlər məşğulluqla bağlı vəziyyətin düzgün qiymətləndirilməsindən və adekvat proqnozlaşdırmanın aparılmasından ibarətdir. Bu cür tədqiqatların vaxtında aparılmaması və onun nəticələrindən istifadə olunmaması ayrı-ayrı ölkələrdə vaxtaşırı sosial gərginliklərin baş verməsinə gətirib çıxarmışdır. Məşğulluqla bağlı proseslərin modelləşdirilməsi zamanı cəmiyyətin və milli iqtisadiyyatın davamlı, intensiv inkişafı meyarlarına ciddi baxılmalı, etibarlı formada dəyərləndirilməli və müvafiq tədbirlər həyata keçirilməlidir. Elmi-metodiki baxımından əmək resurslarının formalaşdırılması ilə bağlı proseslərdə metodoloji yanaşmanın bir sıra istiqamətləri və prinsipləri mövcuddur (şəkil 1).

Şəkil 1-dən göründüyü kimi, əmək resurslarının formalaşması proseslərinə metodoloji yanaşmanın əsas istiqamətlərinə metodoloji, dialektik, müqayisəli, sistemli, struktur–funksional, kompleks yanaşmalar; prinsiplərinə isə elmilik, əhatəlilik, obyektivlik, praqmatiklik və s. daxildirlər.

İstənilən ölkədə demoqrafik vəziyyətin yaxşılaşdırılması və bu sahədə sabitliyinin qorunması üçün münasib tənzimləmə mexanizmlərinin, praktiki fəaliyyət alətlərinin tətbiqinin səmərəliliyi yuxarıda qeyd olunan meyarlardan bacarıqla istifadədən birbaşa asılıdır. Eyni zamanda seçilən sosial meyarlar ilk növbədə cəmiyyətin və milli iqtisadiyyatın qarşılıqlı əlaqələrini özündə əks etdirməli, inkişaf və sabitlik elementlərini birləşdirməli, hər bir vətəndaş marağına cavab verməli, ölkə əhalisinin sosial rifahının yaxşılaşdırılmasına xidmət etməlidir.

İqtisadi yanaşmalar çevik və operativ olmaqla bərabər, cəmiyyətdəki və milli iqtisadiyyatdakı problemlərin həlli üçün yararlı olmalı, effektiv xarakter daşımalı və müasir dövrün tələblərinə cavab verməlidirlər. Bu baxımdan, aşağıdakı mövqeni diqqətəlayiq hesab edirik: "Əgər əvvəllər söhbət kütləvi işsizliyin qarşısının alınmasından gedirdisə, indi ləyaqətli (yüksək maaşlı) iş yerlərindən və onların əsasən regionlarda yaradılmasından gedir" (1, s.114).

Məşğulluq probleminin həllinin sistemləşdirilməsi və təhlili əsasında həyata keçiriləcək tədbirlərin müəyyənləşdirilməsi və vaxtında reallaşdırılması xüsusi əhəmiyyət daşıyır. Bu proseslərin ixrac və ya idxalla bağlılığı da xüsusi diqqət mərkəzində saxlanılmalı və qabaqlayıcı tənzimləmə tədbirləri vaxtlı - vaxtında görülməlidir.

10.61764/lasr.2.2023.105-111




**Şəkil 1. Əmək resurslarının formalaşdırılması proseslərinə metodoloji yanaşma istiqamətləri və prinsipləri**

Qeyd edilən əmək resurslarının formalaşması metodologiyasının əsasında əsasən formalaşdırılan operativ və obyektiv məlumatlar və bu proseslərə ciddi təsir göstərə biləcək amillərin sistemli surətdə araşdırılması tələb edilir. Yəni, ölkədə məşğulluq məsələlərinin sistemli təhlili və ortaya çıxan problemlərin vaxtında tənzimlənməsi məqsədilə işlənib hazırlanan mexanizmlər real məlumat bazasına söykənməli və bütövlükdə cəmiyyətin, milli iqtisadiyyatın mövcud real vəziyyətini özündə əks etdirilməklə əldə olunan proqnozlar əsasında yarana biləcək neqativ proseslərin arzuolunan istiqamətlərə yönəldilməsinə çalışılmalıdır.

Müasir dövrdə dövlətin demoqrafik proseslərlə bağlı siyasətinin metodoloji yanaşmalarını müəyyən edərkən iqtisadi və sosioloji alətlərin bu proseslərə təsirinin araşdırması məsələsi aktuallaşır. Belə ki, demoqrafik proseslərin səmərəli tənzimlənməsi ölkənin iqtisadi təhlükəsizliyinin təminatının gücləndirilməsi baxımından zəruridir. Başqa sözlə, məşğulluq proseslərinin cəmiyyətin və milli iqtisadiyyatın davamlı inkişafı konteksində tənzimləndiyi təqdirdə, ölkənin iqtisadi təhlükəsizliyi daha etibarlı təmin edilmiş olur, ölkə vətəndaşlarının sosial-iqtisadi durumu sabit qalır, insan potensialından səmərəli istifadə genişlənir, əmək və məhsuldar qüvvələrin daha effektiv yerləşdirilməsi mümkünləşir və s. Bunlarla bağlı olaraq, ölkənin aqrar-ərzaq sektorunda əmək resurslarına təsir edən geosiyasi və geoiqtisadi, həmçinin qlobal iqtisadi amillərin təsirinə baxılmalı, öyrənilməli və bunlara müvafiq tədbirlər paketi hazırlanmalıdır (4).

Haqqında danışılan tədbirlər sırasında sosial-iqtisadi vəziyyətin yaxşılaşdırılmasına maksimum müsbət təsir göstərə biləcək mexanizmlərin hazırlanması və həyata keçirilməsi vacibdir. Müəllifin qeyd olunan fikirləri ilə razılaşmamaq mümkün deyildir. Çünki, əks halda məhsuldar qüvvələr passivləşir, istehsalda iqtisadi səmərəlilik azalır, işsizlik sindiromu meydana çıxır. Ona görə də cəmiyyət və dövlətin birgə maraqlarına cavab verən sosial-iqtisadi dövlət

siyasətinin formalaşdırılması, əmək və insan kapitalından səmərəli istifadə olunması bir çox elementləri toplusunun tənzimlənməsini şərtləndirir.

Beləliklə bu məqsədlə həyata keçirilən tədbirlər sosial vəziyyətə müsbət təsir etməli və əmək resurslarının formalaşması üçün əlavə imkanlar yaratmalıdır. Ümumilikdə, əmək resurslarının formalaşması ilə bağlı əsas elementlərin formalaşmasında bir sıra amillər nəzərə alınmalıdır. Bu amillər sırasına əhalinin sayı və strukturu, hərəkəti, yerləşdirilməsi, miqrasiyası kimi parametrləri aid etmək olar. Bu amillərin tənzimlənməsində isə hər birinə xarakterik olan cəhətlər diqqətdən yayınmamalıdır. Bunlara əhalinin sayı və sıxlığını, yaş həddi, cinsi və etnik mənsubiyyətini, ərazi üzrə yerləşməsində balansın pozulmasını, əhalinin doğum və ölümünə dair məlumatları aid etmək olar.

**Demokratik proseslərin tənzimlənməsinə metodoloji yanaşma**

Təcrübədən göründüyü kimi, əhali seqmentləri ilə bağlı tələblərin hər hansı birinin nəzərdən qaçırılması, cəmiyyət üçün ağır fəsadlara və həllinə uzun illər lazım gələn problemlərə gətirib çıxara bilər. Bu və digər səbəblərdən də, əhali seqmentləri ilə bağlı proqnozlar, başlıca olaraq realist və analitik təhlillərə söykənməlidir. Ümumiyyətlə, "demoqrafik proqnoz" anlayışı yunancadan "rognosis" sözü əsasında formalaşmışdır, "əvvəlcədən görmək", "əvvəlcədən demək" mənasını verir. Bu anlayışın mahiyyəti əhalinin tərkibi və sayı ilə bağlı əvvəlcədən proqnozlaşdırmanın elmi-metodoloji yanaşmalar əsasında aparılması və gələcək dövrlər üçün demoqrafik proseslərdə müşahidə olunan əsas meyilləri qabaqcadan görməklə və əsaslı səciyyələndirilməklə birbaşa bağlıdır.

Milli miqyasda əmək resurslarının formalaşmasına təsir göstərən əsas amillərin səciyyələndirilməsi və gözlənilən əsas meyillərin aşkar edilməsi olduqca mürəkkəb məsələdir. Haqqında danışılan mürəkkəblik, metodiki bazanın formalaşması ilə yanaşı, ilkin verilənlər bazasının təşəkkülü və istifadəsi çətinlikləri ilə əlaqədardır.

Təhlillər göstərir ki, bazar iqtisadiyyatı şəraitində bir sıra iqtisadçı və sosioloq alimlərə görə demoqrafik proseslərin tənzimlənməsi mexanizmlərinin müəyyənləşdirilməsində metodoloji yanaşmalarına xüsusi diqqət yeririlməli, cəmiyyətin sosial strukturunun yuxarı, orta, baza, aşağı, sosial aşağı səviyyələrinin xüsusiyyətlərinin sistemləşdirilərək nəzərə alınması və buna müvafiq dövlət tənzimlənməsi mexanizmlərinin hazırlanması vacib məsələlərdəndir. Problemin xüsusiyyətləri araşdırılarkən real situasiya nəzərə alınmalı, bunlarla bağlı məsələlər dərindən öyrənilməli, problemlər üzrə dövlət tənzimlənməsi tədbirləri görülməli, məqsədli dövlət proqramları həyata keçirilməlidir (3, s.8-22).

Əmək resurslarının formalaşdırılması, yerləşdirilməsi və onlardan səmərəli istifadə proseslərin tənzimlənməsində mükəmməl proqnoz göstəricilərinə istinadlar tələb olunur (şəkil 2). Şəkildən göründüyü kimi, əmək resursları ilə bağlı proqnozlar çoxşaxəli situasiyalar üzrə aparılmaqla ümumi strategiya formalaşdırılır.

Ərzaq təhlükəsizliyinin xüsusilə aktuallaşdığı hazırki dövrdə kənd ərazilərində əmək resurslarının formalaşması ilə bağlı təhlillər və bu məqsədlə tətbiq edilən metodoloji yanaşmalar kifayət qədər əsaslandırılmalı, uzunmüddətli təsir elementlərini nəzərə almalı və kompleks xarakter daşımalıdır (2, s.3-10). Əhali məşğulluğunun təmini ilə bağlı proseslərin tənzimlənməsi, metodiki yanaşmalar dövlət orqanları və sosial institutlar tərəfindən də ciddi nəzərə alınmalıdır. Belə ki, bu proseslərlə bağlı problemlər dünyəvi xarakter daşıyır, əhatəli təhlili və yanaşmanı tələb edir. Məlum olduğu kimi, metodoloji yanaşmalar universial xarakter daşımalı və bütövlükdə ölkənin sosial-iqtisadi inkişafının prioritet istiqamətlərinə uyğun formalaşdırılmalıdır.

Əmək münasibətlərinə xüsusi metodoloji yanaşmalardan biri də bu istiqamətdə normativ-hüquqi bazanın optimallığının təmin edilməsidir. Belə ki, normativ-hüquqi bazanın, işlək hüquqi mexanizmlərin və qanunvericilik elementlərinin praktiki dövriyyəyə buraxılması, vətəndaşların məşğulluqla bağlı problemlərə münasibətində hüquqi bazislər əsasında mühitin formalaşdırılması, dövlətlə vətəndaş arasında qarşılıqlı inamın yaradılması vətəndaş cəmiyyətinin inkişafı ilə bağlı stimullaşdırıcı sosial-hüquqi təyinatlı tədbirlərin görülməsi, hər bir vətəndaşın hüquqi elementə

10.61764/lasr.2.2023.105-111




**Şəkil 2. Əmək resursları ilə bağlı proqnozların növlərinin sadələşdirilmiş sxemi**
Mənbə: müəllif tərəfindən hazırlanmışdır

inamının yüksəldilməsi, tənzimləmə tədbirlərin səmərəliliyinin artırılması və onların həyata keçirilməsi üçün effektiv tədbirlərin görülməsi vacib şərtlərdəndir.

Qeyd edək ki, kənd yerlərində məşğulluq proseslərinə spesifik metodoloji yanaşma istiqamətlərindən biri də regional aspektlərin ciddi nəzərə alınması və bununla bağlı fəaliyyət mexanizmlərinin işlənib hazırlanaraq həyata keçirilməsidir. Belə ki, regional amillər milli iqtisadiyyatın inkişafında və ölkədə bütövlükdə sosial-iqtisadi sabitliyin qorunmasında kifayət qədər ciddi önəm təşkil edir.

Regionlarda məşğulluğun təminatı ilə bağlı proseslərə səthi yanaşma əmək ehtiyatlarından və insan resurslarından səmərəli istifadədə problemlər yaratmaqla bərabər, həm də daxili miqrasiyanın intensivləşməsinə, region əhalisinin, xüsusilə maddi rifahı və sosial infrastruktur

şəbəkəsi qənaətbəxş olmayan kənd rayonlarından iri şəhərlərə doğru əhali axını genişlənir, bu isə arzuolunmayan demoqrafik vəziyyət yarada bilir.

**Nəticə**

Beləliklə, əmək resurslarının formalaşdırılması ilə bağlı proseslərin metodoloji xüsusiyyətlərinin sistemli və kompleks şəkildə öyrənilməsi, ümumiləşdirilməsi onların tətbiqi proseslərindən formalaşan demoqrafik vəziyyətin kifayət qədər ciddi dəlillərə söykənmiş arqumentlərlə proqnozlaşdırılması, ölkədə makrosəviyyədə əsas sosial-iqtisadi indikatorların baxılması, bu səviyyədə göstəricilərin təhlil edilməsi, əhalinin təkrar artımı proseslərinin ölkədəki sosial-iqtisadi situasiyaya uyğun istiqamətləndirilməsi məsələlərinin aktuallığını daha da artır.

Ona görə də əmək resurslarının formalaşdırılması əmək bazarı tələbləri nəzərə alınmaqla işçi qüvvəsinin təkrarlanması, ixtisas artımı, demoqrafik dəyişimlər və ən nəhayət məşğulluq məsələləri etibarlı proqram və məlumatlarına istinad edilməlidir.

Bunun üçün kənd yerlərində əmək resurslarının formalaşmasının metodoloji problemlərinin həllində iqtisadi-riyazi modelləşdirmənin imkanlarından istifadə mühüm əhəmiyyət kəsb edir. Son onilliklərdə müvafiq istiqamətdə stoxastik (ehtimallı) modellərdən istifadə etməklə, inkişafın çoxsaylı variantlarından ən yaxşısının seçilməsində bütün mümkün verilənlərdən müqayisəli istifadə cəhdlərinə üstünlük verilməlidir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. Hüseynov T.H. “Azərbaycanın milli iqtisadi inkişaf modeli: nəzəriyyə və praktika”. Bakı, Elm, 2015. səh 466.

2. Nourished Planet: Sustainability in the Global Food System. Barilla Center for Food and Nutrition. Island Press, - 28 giu - 2018 - 304 pagine.

3. Заславская, Т.И. и Ядов, В.А. 2008. Социальные трансформации в России в эпоху глобальных изменений. - *Социологический журнал* - 4 (мар. 2008) - С. 8-22.

4. Rosegrant, M. Global Food Projections to 2020 / M. Rosegrant // Vision Series, International Food Policy Research Institute. 2005//https://www.ifpri.org/ publication/ global-food-projections-2020.

**Гусейн Рагимли**
**Научный руководитель: Хиджран Мирзоева**

**Формирование трудовых ресурсов в сельской местности методологические вопросы**

**Резюме**

*Формирование групп населения трудоспособного возраста с учетом современных требований рынка труда в условиях рыночной экономики закладывает основу для легкого решения проблем их трудоустройства. Эти проблемы охватывают сельскую экономику. Поэтому в статье исследуются варианты использования обоснованных методических подходов и достоверных прогнозных данных при формировании трудовых ресурсов.*

***Цель***-системно и комплексно изучить особенности формирования трудовых ресурсов с целью решения проблемы занятости в сельской местности.

***Методология***-в исследовании использовался метод сравнительного анализа и синтеза

***Результаты исследования***-использование возможностей экономико-математического моделирования имеет большое значение при решении методических проблем формирования трудовых ресурсов в сельской местности.

***Ключевые слова**:* сельская местность, занятость, трудовые ресурсы, население.

**Huseyn Rahimli**
**Scientific supervisor: Hijran Mirzoeva**

10.61764/lasr.2.2023.105-111

**Formation of labor resources in rural areas methodological issues**

**Summary**

*The formation of working-age population groups in terms of modern labor market requirements in the conditions of the market economy lays the groundwork for an easy solution to their employment problems. These problems cover the rural economy. There fore, the article explores the options of using justified methodological approaches and reliable forecast data in the formation of labor resources.*

***Purpose-***to systematically and comprehensively study the characteristics of the formation of labor resources in order to solve the employment problem in rural areas

***Methodolog*y**-the study used the method of comparative analysis and synthesis.

***Research results***-the use of opportunities of economic-mathematical modeling is of great importance in solving the methodological problems of the formation of labor resources in rural areas.

***Keywords*:** rural areas, employment, labor resources, population